*Mamedov Simnar Tanırverdi oğlu, dissertant,*
*Azərbaycan Respublikasının Prezidenti*
*yanında Dövlət İdarəçilik Akademiyası*
*E-mail: simnar86@gmail.com*

# AZƏRBAYCAN RESPULİKASINDA REGİONLARIN DAVAMLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA DÖVLƏT SİYASƏTİ

Azərbaycan iqtisadiyyatının strukturunda təbii ehtiyatların hasilatı və kənd təsərrüfatı əhəmiyyətli paya malikdir. Belə hal həm ətraf mühitin qorunması, həm də mövcud təbii ehtiyatların gələcək nəsillərin maraqlarının nəzərə alınması baxımından istifadəsini əhəmiyyətli edir. Buna görə də, ölkədə ətraf mühitin qorunması, yaranmış gəlirlərin cəmiyyətin sosial inkişafı baxımdan yenidən bölüşdürülməsi, xalis investisi-yaların artırılması kimi şərtləri nəzərə almaqla iqtisadi artımın dayanıqlılığının təmin edilməsi qarşıda duran əsas məqsədlərdən olmaqla dövlətin iqtisadi siyasətinin əsasında dayanır. Bütövlükdə, "Davamlı inkişaf" beynəlxalq, ölkə və regional səviyyələrdə cəmiyyətin inkişafının sosial, etik və ekoloji çərçivələrdə təmin edilməsini ifadə edir. İqtisadi, sosial və ekoloji siyasətin davamlı inkişaf prinsipləri əsasında formalaşması həm nəsildaxili, həm də nəsillərarası ədalətin təmin edilməsi məqsədini daşıyır. Bu baxımdan, Azərbaycanda sosial-iqtisadi siyasətin formalaşmasında davamlı inkişaf prinsiplərinin nəzərə alınması gələcək inkişaf baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan 2000-ci ildə Minilliyin Bəyannaməsinə qoşularaq Minilliyin İnkişafı Məqsədlərinin reallaşdırılması məqsədilə müvafiq proqramlar həyata keçirmişdir. Habelə, ölkəmiz Minilliyin İnkişafı Məqsədlərinin davamı olaraq, 2016-2030-cu illər üzrə "Dünyamızın transformasiyası: 2030-cu illədək davamlı inkişaf Gündəliyi"ndə nəzərdə tutulmuş Davamlı İnkişaf Məqsədlərini realaşdırılmasına qoşulmuşdur. Bununla da, "2030 Gündəliyi"ndə nəzərdə tutulmuş prinsiplərin dövlətin sosial-iqtisaqadi siyasətini formalaşmasında əhəmiyyətli rol oynamağa başlamışdır.

Azərbaycan BMT səviyyəsində qəbul edilmiş bir sıra qlobal təşəbbüslərə qoşularaq onların dövlətin iqtisadi, sosial və ekoloji siyasətində nəzərə alır. "2003-2005-ci

illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" icra edilmişdir. Bu proqramda nəzərdə tutulmuş tədbirlər makroiqtisadi sabitliyin təmin edilməsi, gəlir əldə etmək imkanlarının artırılması üçün əlverişli mühitin yaradılması, əsas səhiyyə və təhsil xidmətləri üzrə keyfiyyətin yüksəldilməsi və həmin xidmətlərə çıxış üçün bərabər imkanların yaxşılaşdırılması, infrastruktur sahələrinin inkişaf etdirilməsi, həssas qrupların daha səmərəli müdafiəsi üçün mövcud sosial müdafiə sisteminin təkmilləşdirilməsi, qaçqın və məcburi köçkün əhalinin həyat şəraitinin yaxşılaşdırılması kimi məqsədlərin icrasına yönəldilmişdir. Bu məqsədlər müəyyən edilərkən BMT-nin Minilliyin Bəyannaməsində nəzərdə tutulmuş məqsədlər nəzərə alınmışdır. Qeyd edilən proqramın davamı olaraq "2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" icra edilmişdir.

Azərbaycanda qeyd edilən proqramların reallaşdırılması prosesində iqtisadi, sosial və ekoloji siyasətin davamlı inkişaf prinsipləri əsasında formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Azərbaycanda iqtisadi inkişaf səviyyəsinə görə regionlar bir-birindən fəqlənir. Belə ki, 2017-cı ildə ölkə əhalisinin təqribən 22,9 faizinin yaşadığı Bakı şəhərinin ümumi məhsul buraxılışında payı 68,0 faizə, muzdlu işləyənlərin sayında payı 46,0 faizə, əhalinin gəlirlərində payı isə 57,2 faizə bərabər olmuşdur. Qeyd etmək lazımdır ki, belə hal 2000-ci illərin əvvəllərində regionların inkişaf səviyyəsinin aşağı olmasını xarakterizə edirdi. Belə ki, həmin dövrdə Azərbaycan əsasən aşağı gəlirli ölkələr qrupuna daxil idi və iqtisadi rayonlarda iqtisadi inkişaf səviyyəsinin ölkə üzrə orta göstəricidən aşağı olması həmin regionlarda əhalinin rifahının aşağı olmasını müəyyən edirdi. Bu amil nəzərə alınaraq "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər üzrə) Dövlət Proqramı" qəbul edilərək reallaşdırılmışdır.

Dövlət tərəfindən regionların inkişafının dəstəklənməsinin davam etdirilməsi və bu sahədə dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi məqsədilə 2009-2013-cü illərdə regionların inkişafı üzrə ikinci dövlət proqramı reallaşdırlmışdır.

Bu proqramların icrası nəticəsində iqtisadi, sosial və ekoloji sahələrdə əhəmiyyətli addımlar atılmış, regionların inkişafına dövlət büdcəsinin vəsaiti hesabına iri investisiyalar qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, müxtəlif istiqamətlərdə həyata keçirilən iqtisadi siyasət nəticəsində, xüsusilə neft strategiyasının uğurla reallaşdırılması 2018-ci ildə ölkədə ümumi daxili məhsulun həcminin 2000-ci ilə nisbətən təqribən 4,5 dəfə, 2003-cü ilə nisbətən isə 3,3 dəfə artmasına səbəb olmuşdur. Son illərdə həyata keçirilmiş iqtisadi siayasətin mühüm nəticələrindən biri iş yerlərinin yaradılması ilə əlaqədar omuşdur. Belə ki, iqtisadiyyatda işləyən muzdlu işçilərin sayı 2003-cü ildə 1226,6 min nəfərdən 2017-ci ildə 1525,0 min nəfərə qədər artmışdır. Ölkədə gəlirlərin artımı regional inkişaf siyasətinin formalaşdırılması prosesində daha böyük məqsədlər qoymağa və onları reallaşdırmağa imkan vermişdir. Bu siyasətin reallaşdırılması nəticəsində ölkənin regionlarının əhmiyyətli dərəcədə inkişafına nail olunmuşdur. Belə ki, 2017-ci ildə iqtisadi rayonlarda ümumi məhsul buraxılışı 2003-cü ilə nisbətən 3,5 dəfə artmışdır.




**Şəkil 1.4. Dövlət büdcəsinin iqtisadi rayonlar üzrə adambaşına düşən yerli gəlir və xərcləri (man.)**

Şəkil 1.4-dən göründüyü kimi, iqtisadi rayonlar üzrə dövlət büdcəsinin yerli gəlirləri əhəmiyyətli dərəcədə artmışdır. Bununla yanaşı, bu artıma dövlət büdcəsindən çəkilən xərclər əhəmiyyətli dərəcədə təsir göstrəmişdir. Belə ki, dövlət büdcəsi hesabına iqtisadi rayonlarda tikinti-quraşdırma işlərinin həyata keçirilməsi hesabına yaranan gəlirlərdən ödənilən vergilər dövlət büdcəsinin yerli gəlirlərinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bütövlükdə, təhlil göstrərir ki, inzibati rayonlarda dövlət büdcəsinin yerli gəlirlər əhəmiyyətli dərəcədə fərqlənsə də, adambaşına düşən xərclər arasında fərq azdır. Belə hal, iqtisadi rayonların inkişafının dövlət büdcəsindən maliyyələşmənin əhəmiyyətli rol oyandığını göstərir və 2010-2016-cı illər ərzində dövlət büdcəsinin adambaşına düşən xərcləri adambaşına düşən gəlirlərindən təqribən 3 dəfə çox olmuşdur. Qeyd etmək lazımdır ki, gəlirlərin iqtisadi rayonlar arasında yenidən bölgüsü bir çox hallarda iqtisadi artıma mənfi təsir edə bilər. Bununla belə, Azərbaycanda dövlət büdcəsinin gəlirlərinin əhəmiyyətli hissəsinin neft və qaz hasilatı sahəsində formalaşnası nəticəsində yenidən bölgü iqtisadi artıma mənfi təsir göstərmir. Bütövlükdə, son illərdə ölkə üzrə ümumi məhsul buraxılışının azalması və dövlət büdcəsindən regionların inkişafın yönəldilən vəsaitlərin məhdudlaşması iqtisadi rayonlarda iqtisadi fəallığın aşağı düşməsinə səbəb olmuşdur. Göründüyü kimi, iqtisadi rayonlarda iqtisadi artım tempinə mərkəzləşdirilmiş xərclərin həcmi əhəmiyyətli dərəcədə təsir göstərir.

Bütövlükdə, son illərdə dövlətin siyasəti iqtisadi rayonlarda iqtisadi və sosial inkişafın təmin edilməsinə yönəlmişdir.

## İstifadə olunmuş ədəbiyyat:

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Azərbaycan regionlarında iqtisadiyyatın dayanıqlı inkişafı / elmi red. Nuriyev Ə.X. və Sultanova R.P., Bakı: Elm, 2009, 295 s.

3. Azərbaycan regionları. Statistik məcmuə. Bakı: 2018, 795 s.

4. "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 02 avqust tarixli 132 nömrəli qərarı.

5. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2009-cu il tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

7. "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli Sərəncamı.

8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında 2016-2017-ci illər üzrə Yekun Hesabat. Bakı: 2018.

9. Azərbaycanın Statistik Göstəriciləri 2018. Bakı, 2018, 808 s.

10. İsmayılov Ç., Abdullayev Ə., Qurbanova G., Hüseynova X., Zeynalova E., Nağıyev F., Seyidzadə M., Həsənov A.. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, 252 s.

11. Dayanıqlı İnkişaf Məqsədləri. Statistik məcmuə. Bakı: 2018, 151 s.